Azərbaycan Respublikası Prezidentinin
2000-ci il 6 mart tarixli,
352 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2000-2001-ci illərdə Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər**

## PROQRAMI

| Tədbirin adı | Məsul təşkilatlar | İcra müddəti |
|---|---|---|
| Söz, fikir və məlumat azadlığının, eləcə də siyasi plüralizmin dönmədən həyata keçirilməsi prinsiplərinə uyğun olaraq, kütləvi informasiya vasitələri redaksiyalarında çalışan jurnalistlərin dövlət idarələri, müəssisə və təşkilatlarında peşə fəaliyyətinə hər cür şərait yaradılması | Respublika nazirlik, komitə, idarə, müəssisə və təşkilatları, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| AzərTAc-ın müasir tələblərə uyğun avtomatlaşdırılmış sistem və proqram təminatı üçün avadanlıq alınması məqsədi ilə əsaslı kapital qoyuluşuna vəsaitin ayrılması. Söz, fikir və məlumat azadlığının təmin edilməsi, bu hüquqdan vətəndaşların və dövlətin mənafeyi naminə düzgün, səmərəli istifadə edilməsi məqsədi ilə Dövlət Teleradio Verilişləri Şirkətinin, "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinin, "Azərbaycan", "Göyərçin", "Günəş", "Ulduz" jurnallarının, "Ədəbiyyat", "Savalan", "Literaturnıy Azerbaydjan" qəzetlərinin maddi-texniki təchizatının yaxşılaşdırılması | Maliyyə Nazirliyi | mütəmadi |
| Jurnalist kadrların, eləcə də poliqrafiya sənayesi üçün mütəxəssislər hazırlayan təhsil müəssisələrinin müvafiq fakültə və bölmələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi | Təhsil Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Maliyyə Nazirliyi | mütəmadi |
| Nəşriyyat işinin və poliqrafiya sənayesinin, eləcə də jurnalistika elminin dərindən öyrənilməsi və inkişafı məqsədi ilə bu sahələrə aid ədəbiyyatın hazırlanması, nəşri və respublika kitabxanalarının həmin ədəbiyyatla təchiz edilməsi | Mətbuat və İnformasiya Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi | mütəmadi |
| Kütləvi informasiya vasitələri haqqında qanunvericiliyin təkmilləşdirilməsi, onların fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilmiş metodoloji tövsiyələrin hazırlanması; peşəkar jurnalist kadrların seçilməsi, eləcə də KİV-lərin fəaliyyətində yaranan ziddiyyətli vəziyyətlərin aradan qaldırılması üçün Mətbuat və İnformasiya Nazirliyi nəzdində aparıcı KİV, jurnalist Birlikləri, M. Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi nümayəndələrinin iştirakı ilə Əlaqələndirmə Şurasının yaradılması | Mətbuat və İnformasiya Nazirliyi | 2000-ci il |
| Kütləvi informasiya vasitələri redaksiyalarına, nəşriyyatlara, poliqrafiya müəssisələrinə, informasiya agentliklərinə, yayıcılara, ötürücü mərkəzlərə dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələrinin icarəsinə görə müəyyən olunmuş tarifə və qiymətlərin minimum məbləğdə ödənilməsinin təmin edilməsi | Dövlət Əmlakı Nazirliyi | 2000-ci il |
| Kütləvi informasiya vasitələri redaksiyalarına, informasiya agentliklərinə telefon rabitəsi üzrə müəyyən olunmuş tariflərin minimum məbləğdə ödənilməsinin təmin edilməsi | Rabitə Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi | 2000-ci il |



Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1130-1131.